QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 102 (5574) 30 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib

**"Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır"**

Səh 7




10

**İndoneziyalı jurnalistlər Azərbaycan həqiqətləri barədə məlumatlandırılıb**



10

**Ermənistan tarixi saxtalaşdırmaqda davam edir**



16

**Messi açıqladı: "Biz Rusiyaya favorit olaraq getmirik"**



# Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib

## *Prezident İlham Əliyev konsertdə olub*

***Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri konsertdə olublar.***

Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan bədii-musiqili gecənin konsepsiyası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulub.

Hər bir azərbaycanlı üçün əziz olan bu bayram günündə Bakı Kristal Zalında sənət adamlarının çıxışları dövlətimizin gücünü, vətəndaşların dövlətə bağlılığını, xalq sevgisini və qürur hissini bir daha əyani təzahür etdirdi.







Xalq Artisti Alim Qasımov və Əməkdar Artist Fərqanə Qasımovanın ifasında "Qarabağ" şikəstəsi, "Natiq" ritm qrupunun "Sarı gəlin" kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra, habelə Qara Qarayevin "Yeddi gözəl", Fikrət Əmirovun "1001 gecə", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletlərindən rəqslər, Xalq artistləri Azərinin, Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun ifalarında "Ey Vətən", "Şuşanın dağları" və "Neftçilər" mahnıları böyük maraqla dinlənildi. Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Emin, Elçin Əzizov, Əməkdar artistlər Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif və Röyanın, "Rast" qrupunun, Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin çıxışları bayram təntənəsi yaşatdı.



Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaratdı.

Təqdirəlayiq haldır ki, 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan özünün azad yaşamaq, müstəqil dövlət qurmaq hüququnu bütün dünyaya bəyan etdiyi kimi, hazırda da şərəfli tarixini, parlaq nailiyyətlərini və durmadan artan qüdrətini dünyaya nümayiş etdirir.

Müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir. Bugünkü Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzuladığı qüdrətli dövlətdir. İndi Azərbaycanın əldə etdiyi uğurlar öz miqyası və əhəmiyyəti ilə seçilir. Bunun məntiqi nəticəsidir ki, hər bir Azərbaycan vətəndaşı qüdrətli, əzəmətli, müstəqil dövləti ilə fəxr hissi duyur. Hər bir xalqın ən ümdə arzusu olan müstəqilliyi Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları xalqımıza 100 il əvvəl bəxş etdilər. Təəssüf ki, bu müstəqilliyin ömrü cəmi 23 ay oldu. Ölkəmiz müstəqilliyinə ikinci dəfə 1991-ci ildə qovuşdu. Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən əsl müstəqil dövlətə məhz 1993-cü ildən - xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra çevrildi. 2003-cü ildən isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərtərəfli və dinamik inkişafdadır, ölkəmizin beynəlxalq imici durmadan möhkəmlənir. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, Ulu Öndərin dediyi kimi, müstəqilliyimiz əbədi, dönməz və daimidir.

Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xalq Şairi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirdiyi videoçarx da nümayiş olundu.

Eyni zamanda, tədbirdə Bakı Media Mərkəzi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış videoçarxlar da nümayiş etdirildi. Konsertdə Azərbaycan Xalq Cümhuriyyətinin növbəti ildönümlərinin əzəli Azərbaycan torpağı olan Qarabağımızda bayram ediləcəyinə əminlik ifadə olundu.

Sonda birlik və həmrəylik, müstəqilliyimizin əbədiliyinə qəti inam rəmzi olaraq incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq Azərbaycanın dövlət himnini oxudular. İki saata yaxın davam edən konsert proqramına ümumilikdə 670 nəfərdən çox şəxs - tanınmış incəsənət xadimləri və yaradıcı heyət cəlb edilmişdi.

Bakı Kristal Zalındakı konsert proqramı Dənizkənarı Milli Parkda quraşdırılmış monitorda birbaşa yayımlandı. Tədbirin sonunda Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı oldu.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

***Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibətilə ziyarət edib. AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.***

***



Düz 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı. XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.

## Rəsmi xronika

Prezident İlham Əliyev Fərid Məmmədovun "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Strahan Edvard Corc Dankanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Vud Endryu Marlinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında da Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin Cənub Qaz Dəhlizinin rəsmi açılışında və XXV Beynəlxalq Neft və Qaz Sərgisində iştirak etdiyinə görə minnətdarlığını bildirdi. Amerika Birləşmiş Ştatlarının bu tədbirlərdə belə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qlobal enerji layihələrinin reallaşdırılmasında ABŞ hökumətinin dəstəyini yüksək qiymətləndirdi və ölkələrimizin uzun illər həyata keçirdiyi tərəfdaşlıq əlaqələrinin çox yaxşı nəticələr verdiyini dedi. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimini ölkələrimiz arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə göndərdiyi məktuba görə təşəkkürünü bildirdi və ABŞ Prezidentinin həmin məktubda əməkdaşlığımızın mühüm istiqamətlərindən olan enerji sahəsində əlaqələrin inkişafı barədə ifadə etdiyi fikirlərin münasibətlərimizin yüksək səviyyəsinin nümunəsi olduğunu vurğuladı.



Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminə dəvətə görə minnətdarlığını bildirən ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirk ölkələrimiz arasında energetika sahəsində möhkəm əsaslara söykənən əlaqələrin həyata keçirildiyini və bu əlaqələrin regionda əməkdaşlığın genişləndirilməsi, həm də, eyni zamanda, Avropanın enerji təchizatının şaxələndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra genişlənəcəyinə əminlik ifadə olundu.

# Azərbaycan ilə Fransa arasında dostluq əlaqələri bütün sahələrdə uğurla inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan-İv Lö Drianı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, fransız şirkətlərinin ölkəmizdə uzun illər səmərəli fəaliyyət göstərdikləri, Azərbaycanda nəqliyyat, kosmik sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə bir çox layihələri uğurla icra etdikləri qeyd olundu. Fransız şirkətlərinin Azərbaycanda fəaliyyətlərindən razılıq hissi keçirdikləri diqqətə çatdırıldı.



Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri də müzakirə edildi. Cənub Qaz Dəhlizinin icrasının önəmi qeyd olundu, SOCAR-la TOTAL şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq Bakıda fransız liseyinin fəaliyyətinin bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

Fransanın Avropa və xarici işlər naziri Jan-İv Lö Drian Fransız-Azərbaycan Universitetinin yaradılmasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın mövqeyi bu münaqişənin tezliklə beynəlxalq hüquq və norma prinsipləri əsasında ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllindən ibarətdir.

Səmimi şəkildə keçən görüşdə Azərbaycan ilə Fransa arasında gələcək çoxşaxəli əməkdaşlığın müxtəlif aspektləri müzakirə edildi.

# İlham Əliyev: "Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir"

***Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Azərbaycanın dövlət himni səsləndirildi. Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.***

Prezident İlham Əliyev öz nitqində bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılıb. Prezident İlham Əliyev qeyd edib ki, biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır:

"Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.




Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə - Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı əlbəttə ki, bu tarixi yaxşı bilir. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.



Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir."

Ardı Səh. 5

Əvvəli Səh. 4

# İlham Əliyev: “Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir”



Dövlət başçısı qeyd edib ki, 2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilib. Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil: “Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüququn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.



Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.




Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.” Rəsmi qəbul konsert proqramı ilə davam etdi.

# Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlər genişlənir

*Prezident İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində iştirak etmək üçün Azərbaycana səfər etdiyinə görə Baronessa Emma Nikolsona minnətdarlığını bildirdi.**

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına son səfərini məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, BP və SOCAR şirkətləri arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.

Baronessa Emma Nikolson Bakıda keçirilən Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəminə toxunaraq bu tədbirlərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə üst-üstə düşməsinin rəmzi xarakter daşıdığını vurğuladı. Baronessa Emma Nikolson bu tədbirləri əlamətdar hadisələr kimi dəyərləndirərək bu münasibətlə dövlətimizin başçısına təbriklərini çatdırdı.

# Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlıq mövcuddur

*Prezident İlham Əliyev Qaz İxrac Edən Ölkələr Forumunun baş katibini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurinə Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirakına görə minnətdarlığını bildirdi.**



Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin Cənub Qaz Dəhlizinin rəsmi açılışının əhəmiyyətini qeyd etdi və bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi. O, Bakıya bu səfəri zamanı inanılmaz inkişafın şahidi olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğuladı. Yuri Sentyurin Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulmasından keçən dövr ərzində ölkəmizin təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verdiyini xüsusi qeyd etdi. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycanda İKT sahəsi qeyri-neft sektorunun prioritet istiqamətlərindən biridir

*Prezident İlham Əliyev "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidentini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidenti Filip Roqu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Microsoft" şirkəti arasında səmərəli əməkdaşlığın aparıldığı bildirildi, bu təşkilatın Azərbaycanda həyata keçirdiyi bir sıra layihələrin önəmi qeyd olundu. Filip Roq təmsil etdiyi şirkətin fəaliyyəti ilə bağlı məlumat verdi. Dövlətimizin başçısı Azərbaycanda İKT sahəsinin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkəmizdə bununla bağlı görülən işlərdən danışdı. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib

*Prezident İlham Əliyev mərasimdə iştirak edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Dövlətimizin başçısı qeyd edib ki, bu gün ölkəmizin tarixində çox əlamətdar tarixi bir gündür. Prezident diqqətə çatdırıb ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulub:***



“”Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir”

“Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açır. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.




Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt - XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içərisində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan “qara qızıl” Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəldilmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlətimiz həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

Sovet İttifaqı dağılanda Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk iki ili çox ağır keçmişdir. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft




sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni, ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlamışdır. Biz əgər tarixə baxsaq görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də “Əsrin kontraktı” imzalanmışdır. “Azəri-Çıraq-Günəşli” neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış “Əsrin kontraktı”nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. “Əsrin kontraktı” Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün “Əsrin kontraktı”nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın iri neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük. 1994-cü ildən sonra ikinci böyük kontrakt




“Şahdəniz” qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. “Şahdəniz” qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə “Əsrin kontraktı”nın icrası nəticəsində “Çıraq” platformasından ilk neft çıxarılmışdır. Bu tarixi videokadrlar artıq göstərilir və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri - Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz “Azəri-Çıraq” yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır.

**Ardı Səh. 8**

Əvvəli Səh. 7

# Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib

*Prezident İlham Əliyev mərasimdə iştirak edib*

Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub Qaz Dəhlizi" layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.








> "Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır"

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla BP ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar da bizə inanır və öz maliyyə resurslarını ayırırlar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq. Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək.

Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

Eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, - hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, - beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək. Yəni, maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik. İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidirlər - həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidirlər və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcək."

x x x

Mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk çıxış etdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson tədbirdə çıxış etdi, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin mərasim iştirakçılarına müraciətini oxudu.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətini səsləndirdi.

Tədbirdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və "BP Group Upstream"in baş icraçısı Bernard Luney də çıxış etdilər. Sonra "Şahdeniz-2" və "Cənub Qaz Dəhlizi" layihələri haqqında videoçarx təqdim olundu. Daha sonra Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdi.

# Prezident İlham Əliyev XXV yubiley Beynəlxalq “Xəzər Neft və Qaz-2018” sərgisi ilə tanış olub

***Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq “Xəzər Neft və Qaz-2018” sərgisi ilə tanış oldular. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verildi.***

Bildirildi ki, bu il “Xəzər Neft və Qaz” sərgisinin yubileyi sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləyən və onun təşəbbüskarı olan ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf edir. Birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan “Əsrin müqaviləsi”nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən “Xəzər Neft və Qaz” sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Hər il sərginin açılış mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu beynəlxalq tədbirin yüksək statusunu bir daha təsdiq edir.



Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunur.

Fransanı builki sərgidə dünyada böyük nüfuza malik “Total” şirkəti ilə təmsil edir. “Total” Azərbaycanda kəşfiyyat və hasilat işlərinə 1996-cı ildə başlayıb. 2009-cu ilin fevralında şirkət SOCAR ilə Xəzər dənizinin dərin sulu sahəsində yerləşən “Abşeron” bloku üzrə hasilat və pay bölgüsü sazişi imzalayıb. 2011-ci ildə şirkət tərəfindən qazma işləri aparılıb və kifayət qədər karbohidrogen ehtiyatları aşkarlanıb. Bu kəşf “Total”ın Azərbaycandakı fəaliyyətinin yeni mərhələsinin başlanmasına imkan verib.

Norveçin “Statoil” şirkəti yeni strategiyaya uyğun olaraq fəaliyyətini artıq “Equinor” adı ilə davam etdirir. Bu şirkət 1992-ci ildə Azərbaycan bazarına daxil olub. Həmin vaxtdan ölkəmiz bu şirkətin beynəlxalq inkişafında mühüm rol oynayıb. Belə ki, şirkətin Xəzərdə nəhəng layihələrdə aparılan planlaşdırma, işlənmə və əməliyyat proseslərində rolu hər iki tərəf üçün mənfəətli olub. Azərbaycan üçün yeni neft-qaz hasilatı dövrü başlayıb, şirkət isə geniş beynəlxalq enerji arenasında etibarlı tərəfdaş kimi tanınıb.

“SOCAR Polymer” investisiya layihəsi son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilir. Bu il istismara verildikdən sonra zavodlar hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək.

Özbəkistanın “Uzbekneftegaz” korporasiyası mütəmadi olaraq sərgidə iştirak edir. Bu qurum 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər təşkilatları birləşdirən müasir, çoxpilləli korporasiyadır. Holdinqin hazırkı strukturu istehsal və texnologiyanın bütün mərhələlərini əhatə edən qarşılıqlı əlaqəli və yaxşı işlənmiş layihələri səmərəli idarə etməyə imkan verir.

Sərgidə iştirak edən yerli “Baku Steel Company” MMC Qafqazın ən böyük metallurgiya zavodudur. Hazırda zavodun istehsal gücü 180 min ton olmaqla 114-245 diametrli tikişsiz, qoruyucu və ümumi təyinatlı borular istehsal edir. Şirkət Rusiya, İran, Türkiyə, Qazaxıstan, Gürcüstan, Ukrayna, Türkmənistan və digər ölkələrə öz məhsullarını ixrac edir.

SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verildi. Bildirildi ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Mayın 29-da rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi layihəsində fəal tərəfdaşlardan olan SOCAR müasir dövrdə ölkəmizin neft strategiyasının uğurla reallaşmasına töhfə verir.



SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə geniş məlumatlar yer alıb. Bu layihələrin başa çatması Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsinə mühüm töhfə olacaq, həmçinin ölkəyə əlavə valyuta həcmlərinin axınını təmin etməklə yeni iş yerlərinin yaradılmasına, respublikamızda və region ölkələrində sürətli iqtisadi inkişafa təkan verəcək.

Onu da deyək ki, SOCAR son 15 ildə ümumilikdə 126,8 milyon ton neft, 92 milyard kubmetr qaz hasil edib, 2 milyon metrdən çox qazma işi həyata keçirib. Bundan əlavə, SOCAR-ın təlim və tədris proqramları yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb.

Növbəti dəfə sərgidə iştirak edən “Türkiyə Petrolları” “Əsrin müqaviləsi”nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərir. Bu qurum Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Ümumilikdə, Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir.

BP şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Ötən dövrdə Azərbaycan Hökuməti ilə tərəfdaşlıq çərçivəsində BP-nin əməliyyatçısı olduğu dünya səviyyəli layihələr - “Azəri-Çıraq-Günəşli”, “Şahdəniz”, “Bakı-Tbilisi-Ceyhan” və “Cənub Qaz Dəhlizi” layihələri uğurla icra olunub. Ötən dövrdə “Azəri-Çıraq-Günəşli” layihəsi üzrə 33 milyard dollardan çox sərmayə qoyulub. 3,3 milyard barel neft və təqribən 32 milyard kubmetrdən çox səmt qazı hasil edilib.

Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağı isə BP-nin bu vaxtadək aşkar etdiyi ən böyük qaz yatağıdır. “Şahdəniz bravo” platforması ilə canlı bağlantı zamanı işəsalma üzrə rəis Elxan Dalqılıcov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, “Şahdəniz 2” layihəsinin uğurla həyata keçirilməsində bu platforma önəmli rol oynayır.

Prezident İlham Əliyev BP-nin əməkdaşlarına uğurlar arzuladı.

İranın Təhsil, Tədqiqat və Mədəniyyət üzrə Akademik Mərkəzi də sərgidə iştirak edir. Bu mərkəz İranda yerli neft sənayesi üçün tələb olunan texnologiyaların hazırlanması sahəsində fəaliyyətə başlayan ilk təşkilatdır. Mərkəz mexaniki avadanlıqlar, qazma qurğuları, kiçik diametrli elastik nasos-kompressor boruları və digər məhsullar üzrə məsləhət verir.

Sərgidə təmsil olunan Bakı Rusiya İxrac Mərkəzinin stendi ziyarətçilər tərəfindən maraqla qarşılanır. Burada Rusiya müəssisələri haqqında ətraflı məlumatlar almaq mümkündür.

Rusiyada aparıcı müəssisə olan “REP Holding” mexaniki intiqallı qabaqcıl maşınların layihələndiricisi, istehsalçısı və dəstləşdiricisidir.

“Global Energy Azerbaijan” şirkəti də ölkəmizdə uğurla fəaliyyət göstərir. Onun tərəfindən istismar edilən 10 neft yatağı Abşeron yarımadasında, digər neft yataqları isə Azərbaycanın Aran iqtisadi rayonunda yerləşir.

“Schulumberger” şirkəti dünyada neft-qaz sənayesi üçün kollektorların xarakteristikası, eləcə də qazma, hasilat və emal üzrə texnologiyaların aparıcı təchizatçısıdır. Şirkət hasilatdan tutmuş sənayedə mövcud olan məhsul və xidmətlərin ən geniş çeşidini təchiz edir.

Məlumat verildi ki, “Hallibörton” şirkəti enerji sektorunda fəaliyyət göstərən ən böyük məhsul və xidmət təchizatçılarından biridir. Şirkət karbohidrogenlərin axtarılması və geoloji məlumatların idarə edilməsi ilə yanaşı, qazma işləri və layihələrin qiymətləndirilməsi, quyuların tikilməsi və digər xidmətlərin göstərildiyi müddətdə istehsalın optimallaşdırılmasına maksimum dərəcədə töhfə verməklə dünyanın neft və qaz sektorunda önəmli rol oynayır.

BOTAŞ-EQUİNER “Belneftekhim” şirkəti xam neft hasilatı, neftayırma və daşıma, neft məhsullarının satışı ilə məşğul olan müəssisə və təşkilatlardan, kimya və neft-kimya, bir sıra elmi-tədqiqat və təkmilləşdirmə, tikinti, texniki baxış təşkilatlarından, eləcə də xarici bazarlarda geniş nümayəndəlik şəbəkəsindən ibarətdir. Şirkət 500-dən çox adda xam neft və kimyəvi məhsul istehsal edir. Şirkətin tərkibinə xam neftin kəşfiyyatı, hasilatı və daşınması, həmçinin neftayırma və neft məhsullarının satışı ilə məşğul olan müəssisələr daxildir.

Diqqətə çatdırıldı ki, “Saipem” şirkəti neft-qaz bazarında quruda və dənizdə qazma xidmətləri, həmçinin mühəndislik, təchizat, boru kəmərlərinin inşası və quraşdırılması, mürəkkəb layihələrin icrası üzrə dünya liderlərindəndir. Şirkət çətin şəraitdə uzaq sahələrdə və dərin sularda əməliyyat aparmaq üçün xüsusi imkanlara malikdir.

Sərgi təşkilatçıları Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər. Sonra dövlətimizin başçısı və xanımı sərgi və konfransın xatirə kitabını imzaladılar.

Azərbaycanın ilk beynəlxalq ixtisaslaşmış “Xəzər Neft və Qaz” sərgi və konfransının 25 illik yubileyi münasibəti ilə nadir poçt markaları buraxılıb. Marka növlərindən birində “Xəzər Neft və Qaz” sərgisinin yubiley loqotipi və rəmzi neft platforması təsvir edilib. Digər markada isə Xəzərin sahilində Bakını təsvir edən rəsm əsərinin reproduksiyası verilib. Bundan əlavə, birinci sərgiyə həsr olunmuş poçt zərfi və xüsusi poçt ştempeli hazırlanıb.

Prezident İlham Əliyev poçt markalarına möhür vurdu. Sərgi təşkilatçıları adından dövlətimizin başçısına və birinci xanıma xatirə hədiyyələri təqdim olundu.

Sonra Prezident İlham Əliyev “Xəzər Neft və Qaz” sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə “ITE Group Plc” şirkətinin baş məsləhətçisi Endryu Vuda və “ITE Group Plc” şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana “Dostluq” ordenini təqdim etdi.

Dövlətimizin başçısı “Xəzər Neft və Qaz” sərgi-konfransının 25 illiyi münasibəti ilə və ölkəmizdə sərgilərin təşkilindəki xidmətlərinə görə “İTECA Caspian” şirkətinin icraçı direktoru Fərid Məmmədova “Tərəqqi” medalını təqdim etdi. Sonda xatirə şəkilləri çəkdirildi.

# İndoneziyalı jurnalistlər Azərbaycan həqiqətləri barədə məlumatlandırılıb





**_Mayın 29-da Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının dəvəti ilə Azərbaycana gəlmiş indoneziyalı jurnalistlərlə görüşüb._**

AZƏRTAC xəbər verir ki, görüşdə Əli Həsənov Azərbaycanın tarixindən, mədəniyyətindən, xalqımızın adət-ənənələrindən, İslam dininin bu bölgədə yayılması və spesifikasından, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyətindən, mövcud olduğu qısa müddətdə həyata keçirdiyi mühüm tədbirlərdən, dövlət idarəçiliyində demokratik normaları bərqərar etməsindən, eləcə də Cümhuriyyətin süqutu və Azərbaycanın SSRİ-nin tərkibindəki 70 illik tarixindən danışıb.

Prezidentin köməkçisi, həmçinin qonaqlara 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra keçdiyi uğurlu inkişaf yolu, ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dövlətinin qurulması, əldə edilən böyük nailiyyətlər, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun yaratdığı fəsadlar, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları barədə məlumat verib.

Görüşdə Əli Həsənov jurnalistlərin suallarını cavablandırıb. Ölkəmizə səfərlərinin onlarda zəngin təəssürat yaratdığını qeyd edən indoneziyalı media təmsilçiləri Azərbaycandakı multikultural və tolerant mühitin, Bakının gözəlliyinin, bütövlükdə Azərbaycanda gördükləri inkişaf proseslərinin onları valeh etdiyini bildiriblər.

# Ermənistan tarixi saxtalaşdırmaqda davam edir




**_"Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində Prezident Administrasiyasının bölmə müdiri, politoloq Fuad Axundov və Qafqaz Tarixi Mərkəzinin direktoru, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi Rizvan Hüseynovun iştirakı ilə mətbuat konfransı keçirilib. Tədbirdə 1918-ci il mayın 29-da İrəvan şəhərinin Ararat (Ermənistan) Respublikasının paytaxtı üçün verilməsinin faciəli nəticələrindən danışılıb._**



AZƏRTAC xəbər verir ki, Fuad Axundov və Rizvan Hüseynov Azərbaycanın əzəli torpaqlarında Ermənistan dövlətinin yaranma tarixindən, azərbaycanlı əhalinin məruz qaldığı etnik təmizləmədən söz açıblar. Onlar, həmçinin Ermənistan hökumətinin bu torpaqların guya heç vaxt Azərbaycana məxsus olmaması barədə dünya ictimaiyyətini inandırmağa çalışdığı saxtalaşdırma metodlarından, o cümlədən tarixi abidələrin dağıdılmasından, arxivlərin məhv edilməsindən, yalançı elmi nəşrlərin buraxılmasından və s. bəhs ediblər.




Sonra jurnalistlərin sualları cavablandırılıb. Tədbirdə, həmçinin İrəvan qalasının dağılmasından sonra Tbilisiyə aparılmış və hazırda Gürcüstan Milli Muzeyində saxlanılan qalanın orta əsr tikililərinin və artefaktların XIX əsrdə çəkilmiş unikal fotoşəkilləri nümayiş etdirilib, Qafqaz Tarixi Mərkəzinin bir neçə il bu mədəni irsi araşdırdığı diqqətə çatdırılıb. İrəvan xanlarının əşyaları, bayraqları, mebelləri və zinət əşyalarının fotoşəkilləri, habelə xanlığın indi dağılmış vəziyyətdə olan sarayından möhtəşəm portretlər də təqdim olunub. Rus fotoqrafiyasının pioneri, şərqşünas D.İ.Yermakovun (1845-1916) çəkmiş olduğu fotoşəkillər də sərgilənib.

Qeyd edək ki, aşkar edilmiş fotoşəkillər və artefaktlara istinadla "Arxiv materialları və qədim fotoşəkillər əsasında Yerevanın (İrəvanın) tarixi mərkəzi" kitab-fotoalbomu nəşrə hazırlanıb. Nəşrdə Azərbaycanın İrəvan xanlığı hökmdarının orta əsr sarayının timsalında Azərbaycan mədəni irsinin Ermənistanda məhv edilməsi prosesi göstərilib. Hazırda xarabalığa çevrilmiş İrəvanın tarixi mərkəzində ümumilikdə 800 bina - məscidlər, saraylar, karvansaralar, hamamlar və digər ictimai tikililər yerləşirdi.

Kitab-fotoalbom Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının layihəsi əsasında "Qafqaz Tarixi Mərkəzi" İctimai Birliyi tərəfindən hazırlanıb. Layihənin müəllifi Fuad Axundov, tərtibatçısı Rizvan Hüseynov, məsləhətçisi Elbrus Məmmədovdur. Nəşrin hazırlanması Gürcüstan Milli Muzeyinin direktoru, professor David Lordkipanidze və muzeyin baş kuratoru, professor Eldar Nadirzadənin köməyilə həyata keçirilib.

# DSX-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley tədbirləri davam edir



Dövlət Sərhəd Xidmətində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli tədbirlər davam etdirilir. Bütün hərbi hissə və bölmələrdə keçirilən mədəni-kütləvi tədbirlərdə, elmi-praktiki seminarlarda, görüşlərdə sərhədçi veteranlar, elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər. Bayram tədbirlərində XX əsrin əvvəlində Şərqdə ilk Azərbaycan Demokratik Respublikasının yaradılmasından, xalqımızın qədim dövlətçilik ənənələrinə, zəngin tarixə malik olması qeyd olunmaqla, müstəqil, müasir Azərbaycan dövlətini əbədi edən Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri dərin minnətdarlıq hissi ilə vurğulanır. Növbəti tədbir "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Kunq-fu Federasiyasının təşkilatçılığı ilə Kunq-fu idman növü üzrə 26-cı Respublika çempionatının keçirilməsi olub. Tədbirin açılış mərasimində çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqəti və qayğısı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm yarışları keçirmək bacarığını, qazanılan qələbələrin ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olduğu xüsusi qeyd edilib. Keçirilən tədgirdə iştirak edən 18 idmançıdan 6-sı qızıl, 2-si gümüş və 5-i bürünc medal qazanaraq, komandalar arasında birinci yerə yüksəliblər. İdmançılardan Əli Mirələkbərli (90 kq+), Əfqan Fətixanov (90 kq), Şənlik Talıbov (80 kq), Hüseyn Hüseynov (56 kq), Lida Lətifova (45 kq), Mustafa Hüseynov (35 kq) müxtəlif çəkilər üzrə yarışın ən yüksək pilləsinə layiq görülüblər. Tədbir qalib idmançıların medallarla təltif olunması ilə başa çatıb.

**_R.HÜSEYNOVA_**

# Ulu Öndər Heydər Əliyevin 95 və AXC-nin 100 illiyinə həsr olunmuş süvari və gəmi yürüşləri təşkil olunub



Müqəddəs və yenilməz dövlət bayrağımız altında Azərbaycan sərhəd mühafizəsini təmin etməkdən şərəf duyan Azərbaycan sərhədçiləri Dahi Öndər Heydər Əliyevin 95 illik yubileyini və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli surətdə qeyd edirlər.

Müstəqillik dövründə dövlət bayrağımızın Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ilk dəfə 22 avqust



1992-ci il tarixdə Naxçıvan sərhəd dəstəsində, Dahi Öndər Heydər Əliyevin iştirakı ilə qaldırılması Azərbaycan Sərhəd Mühafizəsi tarixinin ən şərəfli səhifələrindən biri olmaqla bərabər, hər bir sərhədçinin üzərinə əlavə məsuliyyət qoyur. Dahi Öndər Heydər Əliyevin əmri ilə dövlət sərhədində əbədi ucaldılmış, şərəf, şücaət və şöhrət rəmzimiz olan milli üçrəngli dövlət bayrağımız altında xidmət aparmaq Dövlət Sərhəd Xidmətinin hər bir əməkdaşı üçün böyük qürur mənbəyidir. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Səs" qəzetinə verilən məlumata istinadən, mayın 27-də Gürcüstan, İran İslam Respublikası və Rusiya Federasiyası ilə dövlət sərhədində, həmçinin, Xəzər dənizində sərhəd sularında Dahi Öndər Heydər Əliyevin 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş süvari və gəmi yürüşləri təşkil olunmuşdur. Dövlət Sərhəd Xidmətinin ən nümunəvi hərbi qulluqçularının iştirak etdiyi sərhədçi yürüşlərinə quru sərhədlərində süvari dəstələr, sərhəd sularında isə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri cəlb olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində milli üçrəngli bayrağımızı dalğalandıran yürüş iştirakçıları Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etmək şərəfindən doğan iftixar hisslərini ifadə etmiş, torpaqlarımızı işğaldan azad etməyə və bütün sərhədlərimiz boyu dövlət bayrağımızı yüksəltməyə hər an hazır olduqlarını bildirmişlər. Dövlət sərhədində dövlət bayrağımızın ucaldılmasının əbədiliyini tərənnüm edən bu yürüşlər Azərbaycan sərhədçilərinin vətənpərvərliyinin və Heydər Əliyev dövlətçiliyinə sadiqliyinin ifadəsi olmuşdur.

**Zümrüd BAYRAMOVA**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilir



Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə silsilə bayram tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Səs" qəzetinə verilən məlumata istinadən, mayın 28-də Bakı şəhəri Nərimanov rayonunda sərhədçilər üçün inşa edilmiş yaşayış kompleksində hərbi qulluqçular və onların ailə üzvlərinin iştirakı



ilə keçirilən tədbirdə Azərbaycan dövlətçilik tarixində şanlı səhifə kimi qızıl hərflərlə yazılmış, xalqımızın milli oyanışının məntiqi yekun olaraq, ilk demokratik dövlətin yaranması və İstiqlal Bəyannaməsinin qəbul edilməsi haqqında ətraflı məlumatlar verilmiş, bu əlamətdar hadisənin təkcə Azərbaycan üçün deyil, bütün Şərq dünyası üçün mühüm əhəmiyyət kəsb edildiyi qeyd olunmuşdur.

Tədbirdə Xalq Cümhuriyyətinin varisi olan müasir, müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünya dövlətləri arasında layiqli yer tutmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri böyük minnətdarlıq hissi ilə vurğulanmışdır.

Ümummilli Lider Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasına olan ali diqqət və qayğısı xüsusi olaraq qeyd olunmuşdur.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin iştirakı ilə maraqlı konsert proqramı nümayiş etdirilmişdir.

**ZÜMRÜD**

# "Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir"

***Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə "Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir" mövzusunda tədbir keçirilib.***






Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Xalq Cümhuriyyətinin, müasir Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və Cümhuriyyət tarixindən bəhs edən film nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, 1918-ci il mayın 28-də yaradılan, müsəlman dünyasının ilk parlamentli respublikası kimi dünyanın demokratik dövlətləri tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində silinməz izlər buraxıb: "Müasir müstəqil Azərbaycan bu Cümhuriyyətin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ölkəmizdə qeyd olunması azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşməsinə, həmçinin, gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət edir."




Milli Məclisin deputatı Dilarə Cəbrayılova çıxışında bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunduğu İstiqlal Bəyannaməsinin qəbulundan sonra Cümhuriyyətin ilk parlamenti seçilib, ölkənin sərhədləri müəyyənləşdirilib, bayrağı, himni və gerbi təsdiqlənib, ana dili dövlət dili elan edilib: "Həmçinin, dövlət quruculuğu sahəsində əhəmiyyətli işlər görülüb, ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirilib."

Neft Kəmərləri İdarəsinin rəisi Vasif Əmirov çıxışında cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov müasir Azərbaycanın dövlətinin Banisi Ümummilli Lider Heydər Əliyevin dühası, dərin zəkası, qətiyyəti və əvəzsiz xidmətləri nəticəsində respublikamızın müstəqilliyinin daimi və dönməzliyinə nail olduğunu, beynəlxalq hüququn bərabərhüquqlu subyekti kimi dünyada özünün layiqli yerini tutduğunu və üçrəngli bayrağımızın əbədi olaraq yüksəklərə ucaldığını bildirib.

Tədbirdə digər çıxışçılar da vurğulayıblar ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi və regionun lideri olan müstəqil Azərbaycan Ümummilli Liderimizin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bu gün bütün sahələrdə xariqələr yaradır, yeni tərəqqi zirvələrini inamla fəth edir. Doğma Vətənimiz yeniləşmə və müasirləşmə mərhələsində günbəgün inkişaf edərək, daha da qüdrətlənir.

Tədbirin sonunda YAP Nizami rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup fəal diplom və fəxri fərmanlarla təltif ediliblər, YAP-a yeni üzv qəbul edilmiş şəxslərə vəsiqələr verilib. Yunan-Roma güləşi üzrə Avropa çempionatının qızıl medalçısı Eldəniz Əzizliyə və ikinci yerin qalibi Rasul Çunayevə, eləcə də, bu il keçirilmiş qəbul imtahanlarında 700 bal toplamış Leyli Əhmədovaya hədiyyələr təqdim edilib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

## *Pirallahı rayonunda bu mövzuda silsilə tədbirlər keçirilir*

***Dünən Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Cümhuriyyət 100" adlı tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxışını Ulu Öndər Heydər Əliyevin kəlamı ilə açıb.***

"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız üçün tarixi hadisədir"-deyə qeyd edən H.Şikarov, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin respublikada dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında Sərəncam imzaladığını da xatırladıb. "Prezidentin bu Sərəncamı bir daha müasir müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu göstərir"-deyə qeyd edən YAP Pirallahı rayon təşkilatının sədri vurğulayıb ki, bu tarixi hadisədə Şərqin ilk demokratik müsəlman dövlətinin fəaliyyəti əks olunub: "Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb bir dövrdə meydana gəlib və çox çətin şəraitdə fəaliyyət göstərib. Azərbaycan xalqı və milli dövlətçiliyinin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin vəzifəni yerinə yetirərək, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanlarının yaradılmasına, ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsinə, qısa müddətdə yüksək döyüş qabiliyyətli ordunun yaranmasına nail oldu".

Tədbirdə çıxış edən Pirallahı RİH-in başçısının müavini Anara Hacıbəyli Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının dövlətçilik ənənələrimizin bərpasında, dirçəlməsində mühüm hadisə olduğunu bildirib. Diqqətə çatdırılıb ki, 1918-ci il mayın 28-də Milli Şuranın birinci iclası keçirilib və Azərbaycanın müstəqil dövlət elan olunması haqqında tarixi qərar qəbul edilib. "Cümhuriyyət Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınıb"-deyə qeyd edən A.Hacıbəyli Azərbaycanın həmin dövrdə dünyanın bir çox ölkələri ilə diplomatik münasibətlər qurduğunu, ikitərəfli və çoxtərəfli müqavilələrin və sazişlərin imzalandığını deyib: "Gərgin diplomatik mübarizə şəraitində yaranmış Azəbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin yaradıb. XX əsrin sonlarında yenidən dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hüquqi-demokratik dövlət quruculuğunun, eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olub".








RİH-in başçısının müavini qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub, müvafiq tədbirlərin təşkilinin gənclərə doğma respublikamızın tarixini, mədəniyyətini, milli irsini öyrətmək və sərbəst düşüncə tərzini formalaşdırmaq baxımından yüksək qiymətləndirdiyini vurğulayıb.

Tədbirdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Behruz Quliyev bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. "Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir"-deyə vurğulayan B.Quliyev Azərbaycan gəncinin, məhz bu amil ətrafında inkişaf etdiyini deyib və vurğulayıb ki, bugünkü müstəqil və müasir Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq, inkişaf və tərəqqi yolunu tutmaqdadır: "Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın müstəqilliyi barədə düşünüb və bugünkü müstəqillik Ümummilli Liderimizin qətiyyətli siyasəti nəticəsində əldə edilib. Prezident İlham Əliyev bu siyasəti davam etdirməklə, Azərbaycanı regionda və dünyada lider dövlətlər sırasına qədər yüksəldib. Hər bir Azərbaycan vətəndaşı, xüsusilə, ölkəmizin gələcəyi olan gənc nəsil tarixi və bu günü ilə fəxr edir, qürur duyur".

Sonda keçirilən tədbirlərin yekunu kimi Heydər Əliyev Fondunun dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə hazırlanmış videoçarx nümayiş olunub. Videoçarxda "Cümhuriyyət-100" adlı layihə çərçivəsində 350-dən çox gəncin iştirakı ilə fləşmob şəklində Azərbaycan Respublikasının dövlət bayrağı canlandırılıb, "Cümhuriyyət-100" sözü yazılıb və sonda üçrəngli bayrağımızın fonunda Ulu Öndər Heydər Əliyevin canlı imzası yaradılıb.

Videoçarxın nümayişindən sonra bir qrup şəxs partiyanın ictimai-siyasi həyatında fəal iştirakına görə YAP Pirallahı rayon təşkilatının fəxri fərmanları ilə təltif olunub.

***Rövşən NURƏDDİNOĞLU***

## Bakcell rouminqdə WhatsApp-i pulsuz etdi

*3 AZN-dən başlayan qiymətə 40-dan çox ölkədə bol-bol meqabayt və pulsuz WhatsApp*

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti rouminq xidmətlərini abunəçilərə daha əlçatan və sərfəli etmək məqsədilə yeni rouminq paketlərini təqdim edib. Yeni paketlər sayəsində müştərilər xarici ölkələrə səyahət edərkən öz ailə üzvləri və yaxınları ilə ünsiyyətdə qala biləcəklər.***

"Bakcell"in yeni "Rouminqdə İnternet" paketləri səyahət zamanı internetdən çox istifadə edən müştərilərin üreyincə olacaq. Türkiyə, Gürcüstan, Rusiya, Almaniya və s. kimi 40-dan çox ölkədə təqdim olunan bu paketlər sayəsində Wi-Fi axtarmağa və ya yerli operatorun SİM kartını almağa ehtiyac qalmadı. Bakcell abunəçiləri gündəlik, həftəlik və ya aylıq "Rouminqdə İnternet" paketlərindən birini əldə edib öz səyahət təəssüratlarını Facebook, İnstagram və digər sosial şəbəkələrdə istədikləri qədər paylaşa biləcəklər. Bundan əlavə, "Rouminqdə İnternet" paketlərin istifadəçiləri WhatsApp-dan tam olaraq pulsuz istifadə edəcəklər (mətn və zənglər üçün):

| Paket | Trafik həcmi | Qiymət |
|---|---|---|
| Gündəlik | 100 MB + Pulsuz WhatsApp | 3 AZN |
| Həftəlik | 1000 MB + Pulsuz WhatsApp | 20 AZN |
| Aylıq | 2000 MB + Pulsuz WhatsApp | 30 AZN |

"Bakcell"in yeni gündəlik, həftəlik və aylıq "Rouminqdə hamısı daxil" paketləri isə xaricdə olarkən bol meqabaytlar, çoxlu dəqiqə və SMS-lər sayəsində sərfəli qiymətə tam ünsiyyət sərbəstliyini təmin edir:

| Paket | Trafik, dəqiqə və SMS | Qiymət |
|---|---|---|
| Gündəlik"Rouminqdə hamısı daxil" | 100 MB +10 dəq. + 10 SMS | 5 AZN |
| Həftəlik"Rouminqdə hamısı daxil" | 500 MB + 50 dəq. + 50 SMS | 20 AZN |
| Aylıq"Rouminqdə hamısı daxil" | 1000 MB + 100 dəq. + 100 SMS | 30 AZN |

"Rouminqdə hamısı daxil" paketləri 19 ölkədə təqdim olunmaqla, abunəçilərə öz yaxınları ilə tətil və səyahət həyəcanı və təəssüratları bölüşməyə imkan verir.

Yeni Rouminq paketləri vasitəsilə Bakcell abunəçiləri səyahət zamanı heç bir məhdudiyyət və məsafə hiss etməyəcəklər. Şirkət müasir rabitə xidmətləri istifadəçilərinin tələb və ehtiyaclarını qarşılamaq məqsədilə innovativ həllər təklif etməyə davam edəcək.

"Bakcell"in təklif etdiyi rouminq xidmətləri barədə daha ətraflı məlumat www.bakcell.com səhifəsində təqdim olunur.

## "Respublika günü"ndə "Nar"-dan bayraq aksiyası

***Hər zaman milli dəyərlərə diqqəti ilə seçilən mobil operator "Nar" müstəqilliyimizin 100-cü ilində Bakıda maraqlı aksiya keçirib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar olaraq, "Nar" şəhər sakinlərinə dövlət bayrağının rəmzi olaraq üçrəngli lentlər hədiyyə etdi. ksiya yalnız şəhər mərkəzini deyil, Bakının müxtəlif bölgələrini də əhatə edib. Nar əməkdaşlarının da iştirak etdiyi bayraq aksiyası şəhər sakinlərinin böyük marağına səbəb olub. Aksiyadan hazırlanın xüsusi videonu isə "Nar"-ın rəsmi "Facebook" səhifəsindən (fb.com/naroffici-al) və digər sosial səhifələrdən izləyə bilərsiniz.***



Qeyd edək ki, dövlət müstəqilliyinin 100 illiyi ilə əlaqədar olaraq, "Nar" abunəçiləri üçün müxtəlif kampaniyalar keçirir. Bu kampaniyalara qoşulmaqla abunəçilər "Nar"-dan pulsuz danışıq dəqiqələri və mobil internet əldə edə bilərlər. Kampaniyalar haqqında məlumatları nar.az səhifəsindən əldə bilərsiniz. Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Hazırda "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. "P3 Communications" tərəfindən 2017-ci ildə keçirilmiş şəbəkə sınaqları nəticəsində Nar şəbəkəsi "ən yaxşı mobil zəng xidməti" göstərən şəbəkə olaraq tanınıb.

**Təsdiq edilmişdir:
"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının
10 may 2018-cı il tarixli qərarı ilə**

# "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin 2017-ci il üzrə İllik Hesabatı

| | |
|---|---|
| "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin | |
| - Direktoru | Roman Alloyarov |
| - Baş mühasib vəzifəsini icra edən şəxs | Fazil Cabbarov |
| | |

| | |
|---|---|
| Bakı | 10 may 2018-ci il |
| | |

"OMNI" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Emitent") bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında" Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "OMNİ" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "OMNİ" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.
2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.
3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.
4. Emitentin 2017-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.
5. Emitentin 2017-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.
6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.
7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:
7.1. Hüquq xidmətlərinin göstərilməsi.
8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.
9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:
9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.
10. Emitentin işçilərinin sayı 5 (beş) nəfərdir. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.
11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:
11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç
12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı beşdir. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Zərgərli İsmayıl Fikrət oğlu | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 11 (on bir) | 11% (on bir faiz) |

14. Emitentin səhmdarlarının 2017-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:
14.1. 2017-ci il ərzində Emitentin səhmdarlarının bir ümumi yığıncağı keçirilmişdir:
14.1.1. Emitentin səhmdarlarının yeganə ümumi yığıncağı 10 may 2017-ci il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmiş və yığıncaqda aşağıdakı qərarlar qəbul edilmişdir:
(i) Emitentin illik hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar;
(ii) Emitentin dividendlərinin ödənilməməsi haqqında qərar.
15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:
15.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;
15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi:
1010500K, 21 noyabr 2003-cü il;
15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin
dəyəri 20 (iyirmi) manat;
15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;
15.5. 2017-cı il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər
haqqında məlumat: dividendlər ödənilməmişdir;
15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;
15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.
16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.
17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.
18. Ümumi yığıncaq 2017-ci il üzrə illik hesabatı 10 may 2018-ci il tarixdə təsdiq etmişdir.
19. 2017-ci il üzrə illik hesabat "Səs" qəzetində dərc ediləcəkdir.

TƏRS BAXIŞ

# AXCP sədrinin maxinasiyaları davam edir

*Əli Kərimli onun güdazına getmiş dostlarının yanında uzunmüddətli qonaq olacaq*

***Sirr deyil ki, AXCP sədri zaman-zaman siyasi dividendləri ilə yanaşı, şəxsi mənfəətlərini də artırmaqla məşğul olub. Yəni maddi vəziyyətini yüksək səviyyədə təmin etməklə... Düzdür, bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da biznes qurmaq, maddi gəliri artırmaq üçün hər bir vətəndaşa kifayət qədər imkan və şərait yaradılıb.***

Ancaq bu, o demək deyil ki, sən bu imkanlardan sui-istifadə edərək, dövlətin cibinə girib, qara-qura yollarla ona kəf gələsən. Məsələn, Baş Prokurorluq və Daxili İşlər Nazirliyi son günlər həbs edilən bir neçə AXCP üzvünün hansı səbəblərdən saxlanıldıqları ilə bağlı birgə məlumat yayıb. Məhz həmin məlumatdan sonra bəlli olub ki, qanunsuz yollarla əldə edilmiş 412 min ABŞ dolları AXCP-nin tədbirlərinin maliyyələşdirilməsinə, dəstə üzvlərinin iqtisadi maraqlarının təmin olunmasına və digər maliyyə əməliyyatlarının həyata keçirilməsinə yönəldilib. Beləliklə, başda Ə.Kərimli olmaqla, onun ətrafının cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərinin leqallaşdırılması əməlləri ifşa olunub və bundan dərhal sonra, AXCP sədri sosial şəbəkədə, necə deyərlər, cəh-cəh vurmağa başlayıb.

### Əli Kərimli unutmamalıdır ki, onun və yaxın qohumlarının müxtəlif banklar vasitəsilə həyata keçirdikləri dələduzluq faktları bu gün də gündəmdədir!

Məsələ həm də ondadır ki, belə əməllər Ə.Kərimlinin adı altında birinci dəfə baş vermir. Yəni kifayət qədər siyasi və maliyyə dələduzluqları var ki, onların əksəriyyəti Ə.Kərimlinin boynuna yazılmış günahlardır. Çünki zaman-zaman mitinqlərində "xalqımız alnının təri ilə, həbsxanalardan keçə-keçə, min bir əziyyətlə ölkəmiz azadlıq və ədaləti bərqərar etməkdədir və edəcək" iddiası ilə çıxış edən AXCP sədri nədənsə son illər həbsxanaya düşüb-eləmir. Həbsxanalara düşənlərin əksəriyyəti isə, məhz onun belə populist, araqarışdıran çıxışlarına mübtəla olaraq xəstələndirilən binəva kəslərdirlər. Bu gün guya həbs edilən cəbhəçilərin qeydinə qalaraq, bağıran cəbhə sədri, onu da bilməlidir ki, artıq saxlanılan cəbhəçilər onun təməlinə düşdüklərini etiraf edirlər. Ona görə də, Ə.Kərimli bilməyə məhkumdur ki, onun tərəfindən xəstələndirilən beş-on nəfər kəsləri "xalq" adlandırmaq onun imtiyazında olmayan məsələdir. Bu gün xalq bu dövləti, bu məmləkəti, öz dövlət başçısını, dövlətçilik ənənələrini qoruyub-saxlayanlar böyük ordudur! Ə.Kərimlinin günahı ucbatından həbsxanalara düşən beş-on nəfərə "xalq" deyə müraciət etməsi isə, sadəcə, cinayətdir!

Yaxşı olardı ki, Ə.Kərimli bir müddət əvvəl də, ona qarşı irəli sürülən bank maxinasiyaları haqqında daha ətraflı açıqlamalar verəydi və xalq da görəydi ki, AXCP sədri bankir kimi danışıb nəyisə sübut etməyə çalışarkən, əsl reallığı etiraf etmək gücündə deyil. Ə.Kərimli də unutmamalıdır ki, onun və yaxın qohumlarının müxtəlif banklar vasitəsilə həyata keçirdikləri, ümumilikdə, 8 milyon 388 min manatlıq maxinasiya hələ uzun müddət müzakirə mövzusu olacaq. Çünki Ə.Kərimlinin bankirlər kimi verdiyi cavablar özü-özlüyündə daha böyük suallar doğurur və bank qalmaqalını bir qədər də dolaşığa salır.

### "Cəbhə" sədrinin söylədiyi hər bir fikir onun öz əleyhinə işləyir

Qısa bir xatırlatma - Ə.Kərimli iddia edirdi ki, indiyədək heç bir xarici ölkənin heç bir fondundan heç bir qrant almayıb, heç bir bankdan kredit götürməyib və heç bir bankda heç bir hesabı olmayıb. Yalnız keçən il Beynəlxalq Bankda xüsusi hesab açıb ki, 2005-ci ildə parlamentə seçildiyi, amma mandatının ləğv olunduğu üçün Avropa Məhkəməsinin təyin etdiyi 30 min avro cəriməni həmin hesab vasitəsilə alıb. Ancaq sonradan bəlli oldu ki, bank sənədlərində Ə.Kərimli 2008-ci ildə "Texnikabank"dan 145 min manat məbləğində kredit götürdüb. Ə.Kərimli götürdüyü krediti elə həmin ildə də ödəyərək, borc hesabını büsbütün bağlayıb. Deməli, Ə.Kərimli kredit götürüb! Hərçənd ki, o, bu gün də bu faktı təkzib etməyə çalışır.

Onu da xatırlatmaq yerinə düşərdi ki, bir müddət öncə, Ə.Kərimli bayraqdar Elman Türkoğlunun "30 milyonluq villa" iddiasını da təkzib edə bilməmişdi. E.Türkoğlu demişdi: "Əli Kərimlidən soruşuram: Londonda 23 milyonluq villa kimindir? Bilgəhdəki 3,5 milyonluq villa kimindir? Camaatın oğlu meydanlara çıxır, onun oğlu ildə 25-30 min dollar pulla xaricdə oxuyur. Bu gün müxalifətdə quldarlıq sistemi hökm sürür. Əli Kərimli AXCP-də pulla gəncləri saxlayır ki, mitinqlərə digər partiyalardan daha çox adam çıxarsın. Adama deyərlər, bu qədər pul səndə haradandır?"

Beləliklə, bütün bu açıqlamalar maraqdoğurucu nəticələr ortaya qoyur. Heç bir yerdə işləməyən Ə.Kərimli, vaxtilə xaricdə təhsil almış oğlu Türkel Kərimli və qohumları 2012-ci il oktyabrın 30-dan 2013-cü il iyunun 13-dək olan müddətdə banklardan 8 milyon 603 min 364 manat nağd pul çıxarıblar. Bütün bunlarla yanaşı, Ə.Kərimli 2 il ərzində müntəzəm olaraq nəhəng məbləğlərdə pul çıxarıb, böyük məbləğli maliyyə əməliyyatları aparıb, eləcə də, böyük həcmdə pul kütləsini qəbul edərək, iri məbləğlərdə vəsaitləri müəyyən yerlərə göndərib. Maraqlıdır, bu pullar haradan gəlib?

Məhz bütün bu fikirlərdən və qabaqdan gəlmişliklərdən aydın olur ki, Ə.Kərimli nə qədər özünü müdafiə etməyə çalışsa da, haqqında deyilənləri təkzib edə bilmir. Əksinə, söylədiyi hər fikir onun əleyhinə işləyir. Bu məsələnin isə, əlbəttə ki, bir sonu olacaq - Ə.Kərimli - gec, ya da tez, onun güdazına getmiş dostlarının yanında uzunmüddətli qonaq qalacaq...

**Rövşən RƏSULOV**

# "Müxalifət ənənəvi ampluasından çıxış edir"

*Mais Səfərli: "Müxalifət düşərgəsini təmsil edən şəxslər azadlığa çıxmayıb" deyə hay-küy salmaq anormallıqdır"*



Məlum olduğu kimi, Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv Sərəncamı imzalayıb. Əfv Sərəncamı 634 nəfərə şamil edilib. Artıq əfv olunan şəxslər azadlığa çıxıb. Bu isə cəmiyyətdə böyük alqışa və böyük diqqətə səbəb olub. Ancaq yenə də dağıdıcı müxalif ünsürlər ənənəvi amplualarından çıxış ediblər. Müxalifət imzalanan əfv Sərəncamında özlərinə yaxın şəxslərin yer almamasından hay-küy sayırlar. Bu, müxalifətin anormal bir vəziyyətdə olduqlarının nümunəsi sayıla bilər? Niyə onlar hər zaman cılız düşüncələrə sahib olurlar? "Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifət adət edib boş qazan içi danqıldatmağa: "Prezident İlham Əliyevin imzaladığı növbəti əfv Sərəncamı çox müsbət bir haldır. Cənab İlham Əliyev hakimiyyətdə olduğu illərdə dəfələrlə belə əfv Fərmanı imzalayıb. Humanist addımlar nəticəsində də yüzlərlə-minlərlə insan bu günə kimi azadlığına, təkrarən ailəsinə qovuşub. Daha 634 nəfər əfv olunaraq, ailəsinə və azadlığına qovuşdu. Odur ki, bu humanist, bu müdrik addımına görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıq bildiririk. Bütün bunlar bizim dövlətimizin, Prezidentimizin humanist xarakterindən xəbər verir. Prezident İlham Əliyev çox humanist bir insandır və belə fərmanlar imzalayır. Buna görə də, dövlət başçısına minnətdarlıq edirik. "Müxalifət düşərgəsini təmsil edən şəxslər azadlığa çıxmayıb" deyə hay-küy salmaq anormallıqdır. Ümumiyyətlə, müxalifət heç vaxt heç nədən razı qalmayıb və qalmır. Ümumiyyətlə, bütün məsələlərdə müxalifət yalnız özünü düşünərək, özünə sərf edən istiqamətdə addım atır. Yəni bunlar ancaq özlərinə kimlər sərf edirsə, o insanlar haqqında düşünür".

M.Səfərli müxalifətin blok yaratmağa cəhd etməsinə də münasibət bildirdi və qeyd etdi ki, bu günə qədər dəfələrlə müxalif şəxslər tərəfindən anormal, məntiqsiz açıqlamalar və addımlar olub: "Müxalifət düşərgəsində biri-birinə düşmən kəsilən siyasətçilər yenidən bir araya gələrək, hansısa bloklar yaradıblar. Düzdür, müxalifət təmsilçiləri tərəfindən yaradılan bu blokların taleyi fiaskoya uğrayıb. Çünki o blokların yaradılmasında səmimi olmayıblar. Demək olar ki, müxalifət təmsilçilərinin hansısa bir məsələ ilə bağlı müvəqqəti olaraq birləşmələri belə xarici qüvvələrin istəyi əsasında baş tutur. Çünki bu gün cəmiyyət müxalifət təmsilçilərinin biri-birini qəbul etməmələrini çox gözəl bilir. Yəni müxalifət partiya sədrləri hansısa bir məsələ ilə bağlı biri digərinə heç vaxt güzəştə getməyib".

Partiya sədri onu da bildirdi ki, Azərbaycan nəinki, eləcə də, regionda dünyada tək-tük dövlətlərdəndir ki, heç bir böyük gücə bağlı deyil və müstəqil şəkildə siyasət həyata keçirir: "İnkişaf etmiş Azərbaycanı istəməyən qüvvələr çalışırlar ki, Azərbaycanı özlərinə tabe etsinlər. Amma Azərbaycan Prezidenti buna imkan vermir, yəni Hörmətli Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət yalnız Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edir. Cənab Prezidentimiz İlham Əliyev Azərbaycan dövlətini heç kəsin iradəsindən asılı olmağa qoymur. Bu siyasət heç zaman dəyişməyəcək".

**GÜLYANƏ**

# Milli xəyanət cütlüyü - Əli Kərimli-Cəmil Həsənli

*Və yaxud qozbeli qəbir də düzəltməz*



Doğrusu, bugünkü gün hələ də dağıdıcı düşərgənin "fəallari" sırasında özlərini "lider" hesab edənlər - AXCP sədri Əli Kərimli və "Milli Şura"nın siyasi oyuncağı Cəmil Həsənli yenə də "Facebook" səhifələrində 25 ildən çox davam edən "nağıl"larını təkrarlayırlar. Bununla öz aləmlərində hakimiyyətə qarşı çıxdıqlarını nümayiş edirlər. Əslində, milli xəyanət cütlüyünün bu cür "addımları" ilk deyil. 25 ildir ki, kürsü davası edən Ə.Kərimli və onun quyruqbulayanı C.Həsənli, hətta bundan sonra da "fəaliyyətləri" ancaq virtual məkandadır və paradoks da olsa, bu adamları dəstəkləyənlər də saxta profillərdir və bu dağıdıcılar ancaq özlərini və xarici havadarlarını aldada bilərlər, xalqı yox!

Xüsusilə də, seçkidən sonra siyasətçidən çox bloggerliyi ilə məşhurlaşan Ə.Kərimli ilə C.Həsənli əllərinin hər yerdən üzüldüyünü görüb, yenə də ölkədə siyasi sabitliyi pozmaq məqsədi ilə sosial şəbəkə vasitəsilə insanları hakimiyyətə qarşı müqavimətə çağırış edirlər. Ancaq neyləmək olar ki, bu bədbəxtlər hələ anlamırlar ki, anormal hərəkətləri ilə özləri də bilmədən şəxsi mahiyyətlərini ortaya qoyurlar: məgər müxalifətdə olmaq, ölkəyə düşmən kəsilmək deməkdirmi? Söhbət ondan gedir ki, bu, bütövlükdə, dağıdıcı müxalifətin faciəsidir. Bu faciəni isə özləri-özlərinə yaradıblar. Bu gün də siyasi uğursuzluğun və məğlubiyyətlərin kökündə dayanan amil budur...

Bir də bu satqınlar anlamır ki, dövlət yalnız müstəqil liderin rəhbərliyi altında müstəqil ola bilər. Zəif xarici güc mərkəzlərinin təsirləri altında olanlar isə heç vaxt nə lider, nə də müstəqil rəhbər ola bilmirlər.

Ancaq Ə.Kərimli, İ.Qəmbər, C.Həsənli və bu kimi fərdlər anti-azərbaycançı mərkəzlərlə, Azərbaycanın düşmənləri ilə iş birliyi qurub, hakimiyyətə gəlmək istəsələr də, Azərbaycan xalqı öz iradəsi ilə seçilmiş hakimiyyətdən başqa heç bir iradəni qəbul etməyəcək. Çünki onların başa düşmədiklərini xalqımız yaxşı başa düşür. Bir də neyləmək olar, qozbeli qəbir də düzəltməz.

**Rəfiqə HÜSEYNOVA**

# Azərbaycan Xalq Cümhuriyyətinin ədəbi-mədəni siyasətində intibah, istiqlal insan haqları məsələləri

***AXC Şərqdə ilk demokratik respublika kimi Azərbaycan dövlətçilik tarixində əvəzsiz rol oynadı. Məhz bu məqama toxunan AMEA-nın müxbir üzvü Yaşar Qarayev yazırdı: "Azərbaycan Xalq Cümhuriyyəti, bütün islam aləmində yeni tipli ilk sosial-inzibati qurum kimi, ümumşərq və ümumtürk əhəmiyyəti kəsb etmişdi, hətta sovet federasiyası daxilində də Azərbaycanın nəzəri istiqlalı, ərazi bütövlüyü və respublika statusu üçün tarixi əsası, təşkilat modelini Azərbaycan Cümhuriyyəti verib. Total rejimin imperiya qəlibləri ilə, vulqar sinfilik və diktatura sxolastikası ilə təftiş olunanda yox, hüquqi dövlət, ümumbəşəri dəyərlər, real, suveren demokratiya meyarları ilə sınananda onun həm tarixi mahiyyəti, həm də bugünkü, müasir Azərbaycan üçün mənəvi dəyər və mədəni-əxlaqi sərvət rolu bütün əyaniliyi ilə aşkar görünür.***

"Ən yeni dövr" ilə bağlı, hələlik, son milli-tarixi və ədəbi-mədəni intibahın aylarının və illərinin hesabını AXC ilə başlamaq soyumuza, adımıza və özümüzə doğru yolda ən dəqiq start mövqeyinə çıxa bilmək üçün lazımdır. Milli təfəkkürün, tarixi özünüdərkin tamlığına, aydınlığına, bütövlüyünə nail olmaq üçün lazımdır. Başqa sözlə, bu milli ədəbiyyatı və onun tarixini mənəvi-mədəni bir vəhdət və bütövlük halında, bütün (yaxın və uzaq) tarixi nəsillərin, coğrafi qütblərin, iki Azərbaycanın bugünkü azərbaycanlıların mənəviyyat və düşüncəsinin tərcümanı kimi, Asiyanı və Avropanı, Şərqi və Qərbi, İranı və Turanı birləşdirən bütün ərazilərdəki soydaşlarımızın müştərək irsi kimi öyrənmək üçün (özü də ideoloji yasaqlarsız, coğrafi çəpərlərsiz, ehkamçı qəliblərsiz öyrənmək üçün) bir təcrübə, örnək, məktəb və ənənə kimi lazımdır.

Suverenlik dövründə, azad Xalq Cümhuriyyətində müstəqillik - şüurda, ideologiyada müstəqillikdən başladı. Müstəqillik ideyası elan olunmuşdu, mənəvi-ideoloji təsisatlar fəaliyyət göstərirdi, dövlət qurumun, məhz milli müstəqillik baxımından inzibati-ərazi statusunun gerçəkləşməsi, sosial-siyasi və iqtisadi, hərbi və diplomatik təminatı isə bir vəzifə kimi hələ qarşıda dururdu.

Ən böyük uğur, məhz, ərazi bütövlüyü və onun toxunulmazlığı ilə bağlı siyasi-diplomatik münasibətlər sahəsində əldə edildi. "MÜSTƏQİL AZƏRBAYCAN" statusu, türk etnik gerçəkliyi həm Bakıda, həm də Qafqazda qorunub-saxlana bildi. Gürcüstanla (Borçalı probleminin mövcudluğuna baxmayaraq), Araz Türk Respublikası və Cənub-Qərbi Qafqaz Respublikası, Qarapapaq Cümhuriyyəti ilə əlaqələr, xüsusilə, səmərəli istiqamətdə inkişaf etməyə başladı. Həmişə olduğu kimi, bu gərgin tarixi məqamda da ən ciddi hərbi-diplomatik dramatizm ("fasiləli müharibə şəraiti") Qarabağda, Azarbaycan-Ermənistan münasibətləri sahəsində baş verdi".

Bərabərhüquqlu vətəndaşlıq, demokratik respublikaçılıq ideyaları, milli istiqlal şüurunun təşəkkülündə əvəzsiz xidməti olan AXC-nin qurulması gələcəyimizin böyük qələbəsi idi. Bu baxımdan, Y.Qarayev daha sonra yazır: "Demokratik Cümhuriyyət - Azərbaycanda humanitar milli ənənənin, ədəbi, hüquqi, fəlsəfi fikrin, milli "MƏN" və milli dövlət şüurunun, bütövlükdə xalqın azadlıq hərəkatının tarixən qanunauyğun və məntiqi yekunu kimi təşəkkül tapmışdı. AXC rəhbərlərinin düşüncəsində Azərbaycan xalqının öz ruhundan doğan bir ümummilli hərəkat, hadisə idi".

Demokratik Cümhuriyyətin təşəkkülünün tarixi qanunauyğunluğunu şərtləndirən amillərdən ən mühümü də elə onun, məhz milli-tarixi ənənənin yekunu və nəticəsi kimi meydana çıxması faktıdır. Demokratik respublika ona görə az müddətdə çox iş görə bildi ki, fəaliyyət göstərdiyi 23 ayı nə ondan əvvəlki 23 ildən, nə də sonrakı 70 ildən ayırmaq mümkün deyildir.

Cümhuriyyət ideyası, ümumiyyətlə, Azərbaycanda müasir mənada milli mənlik şüurunun oyanması, xüsusən, keçən əsrin sonlarından vüsət alır. Düzdür, Azərbaycanda müstəqil dövlət ənənələrinin, "AZƏRBAYCAN" sözünün tarixi çox qədim əsrlərə gedib çıxır (IX əsrə, Xətib Təbriziyə qədər). Lakin çar istilası ilə yenidən bu sözün həyatdan və xəritədən silinməsi prosesi başlayır və Gəncə dönüb "Yelizavetpol" olanda, "Azərbaycan" sözü də "tatar" sözü ilə əvəz olunur. Şübhəsiz, əvvəllər də azərbaycanlılara onların əslini - türk mənşəyini anlatmaq cəhdləri olmuşdur ("Əkinçi", "Ziya", "Kəşkül" və b.). Lakin Azərbaycanı, məhz milli bir anlayış səviyyəsində xalqa və dünyaya dərk etdirmək hələ milli məqsəd və vətəndaşlıq vəzifəsi kimi qalmaqda davam edirdi. Çünki hələ də daxildə və xaricdə əfkari-ümumiyyə Azərbaycan - deyə bir mövcudiyyət tanımırdı və iş o yerə çatmışdı ki, "KƏŞKÜL"dən otuz il sonra indi də "MOLLA NƏSRƏDDİN" millətin adı, dili, ərazisi barədə məlumatı bədii publisistikada, hekayə və felyetonlarda xalqa çatdırmağa (C.Məmmədquluzadə, "AZƏRBAYCAN" məqaləsi) ehtiyac hiss etmişdi. Yuxarıda adları çəkilən mətbuat orqanlarının və onların mühərrirlərinin ictimai fəaliyyət meydanına atılması ilə bu məsələ, xüsusilə güclənmişdir. Milli ənənələrə qayıdışın ifadəsi Əli bəy Hüseynzadənin "Həyat" qəzetində hissə-hissə dərc olunmuş məşhur "TÜRKLƏR KİMDİR VƏ KİMLƏRDƏN İBARƏTDİR?" adlı əsərində qabarıq şəkildə əks olunur. Qəzetin ümumi istiqaməti məlum "TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, MÜASİRLƏŞMƏK (AVROPALAŞMAQ)!" şüarında ifadə olunurdu. Lakin "islamlaşmaq" deyəndə, söhbət, əsla, ortodoks dini doktrinanın dirçəldilməsindən getmirdi, bütöv bir həyat tərzi olan islama məxsus ümumbəşəri mənəvi-əxlaqi dəyərlərin intişarından gedirdi. "HƏYAT", "FÜYUZAT" mühərrirləri təkamüldə mənəvi-etik sistem kimi, əxlaqi-vicdani dəyər və sərvət kimi islamın rolunu qəbul və təsdiq edirdilər. Onlar "MƏHKUM SİNİF" və "MƏHKUM MİLLƏT" ifadələrini həmişə yanaşı işlədir, onun, məhz əzilən siniflərlə kölə millətlərin mənafeyini özündə birləşdirməsində çağdaş demokratik inqilabın Avropa inqilablarından əsas fərqini görürdülər. Belə bir tarixi qənaət o dövrün milli ziyalılarının ictimai-siyasi düşüncə səviyyəsinin yüksəkliyini göstərən mühüm bir nailiyyət idi və öz reallığını, həyatilik gücünün təsdiqini Azərbaycan Xalq Cümhuriyyətinin yaranması faktında tapdı."

AXC ədəbi-bədii və mədəni prosesinə toxunan Y.Qarayev az müddətə bu sahədə böyük uğurlar qazanıldığından bəhs etmişdir: "Azərbaycanda Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və teatrı olmuşdur. Dövrün mətbuatı mədəniyyətin və elmin bütün sahələrində başlanan sosial-mənəvi intibahın pafosu ilə aşılanmışdır. Tədqiqat göstərir ki, hətta ay da, ulduz da rəmz və obraz kimi rəsmiləşən milli simvolikaya - üçrəngli bayrağa və gerbə poeziyadan, romantik nəsrdən və inqilabi publisistikadan keçərək gəlmişdir. Lakin uzunmüddətli ehkam və yasaq illərində mətbuatın və ziyalıların bu dövr fəaliyyətinin üstündən qara xətt çəkilmiş, hətta Hadinin, Üzeyir bəyin, Cabbarlının, istisnasız, bütün nəşrlərində onların bədii irsi natamam, zədəli halda əhatə olunmuşdur. Özü də o nümunələr və mətnlər ixtisar olunmuşdur ki, bu gün müstəqillik dövründən xalqa, xüsusilə lazımdır.

Ümumiyyətlə, Azərbaycanda milli müstəqilliyə qədərki son yetmiş il demokratik respublikanın təşəkkül və süqutunu şərtləndirən səbəblər silsiləsini, Cümhuriyyət barədə həqiqəti qəsdən, şüurlu olaraq yalanlı və təhrifli şəkildə izah edib. Yaxın milli tariximizin tədqiqində subyektiv, konyuktur və əyintili mülahizələrin sayı bəlkə də başqa heç bir sahədə buradakı olduğu qədər "zəngin" olmayıb.

Bütünlükdə, Azərbaycan tarixinin son iki əsrini marksist elm bu vaxta qədər çar imperiyası daxilində bir regionun tarixi kimi öyrənib, müstəqil milli tale və tarix baxımından yox.

Azərbaycanın mənəvi mədəniyyətinin, nəinki milli təkrarsızlığı, hətta Şərqin və Asiyanın bir parçası olduğu da çox vaxt yaddan çıxıb. Avropaya Pyotrun açdığı pəncərəni də Stalin bağladıqdan sonra isə rəsmi sovet humanitar fikri vahid, qapalı və lokal kontekstdə hərəkət etməyə başladı. Ayrı-ayrı regionlarda bu hal, xüsusilə, ifrat və vulqar miqyaslar aldı.

Hətta Azərbaycanda müstəqillik dövrünün ərəfəsində meydana çıxan bir sıra yazılar da demokratik respublikaya münasibətdə, məhz elmi əxlaq və mənəvi vicdan təravəti ilə müasir görünə bilmədi.

Elə günahlar var ki, onlara, bəlkə də, 1937-də bəraət vermək olardı, amma 1980-də, 1990-da bu, mümkün deyil, Müqəddəs yaddaşa, doğma anaya, ana Azərbaycana silah və əl qaldırmaq günah sayılır, yaddaşa "qələm qaldırmağı" da anaya silah və əl qaldırmaq kimi ağır xətaların sırasına daxil etmək olar.

Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin tədqiqində bu vaxta qədərki əyintilərə cavab kimi əks ifrata, beləliklə, kütləvi eyforiyaya yol vermək də yenə birtərəflilik demək olardı. Söhbət hər cür (istər mənfi, istər müsbət işarəli stereotipə yol verməyin qeyri-elmiliyindən gedir. Cümhuriyyətin iki ildən də az sürməsini şərtləndirən xarici (beynəlmiləl) obyektiv səbəblərlə yanaşı, daxili-subyektiv məqamları da açıq təhlilə cəlb etmədən problemin elmi tarixini və qiymətini vermək mümkün deyil.

Azərbaycan tarixinin Cümhuriyyət dövrünün tədqiqində total inkardan başqa, daha iki meyil özünü göstərir. Bir sıra hallarda demokratik respublikanın yalnız monarxiya ilə, çar rejimi ilə müqayisədə üstünlüyündən bəhs olunur. Digər hallarda isə, o özündən sonrakı Azərbaycan Sovet Respublikası ilə müqayisədə tənqidi mülahizələrin hədəfi edilir. Hər ikisi həqiqətdən eyni dərəcədə uzaq qənaətlərə gətirib çıxarır. Demokratik respublikanın yalnız bayrağı və gerbi yox, suverenlik və istiqlal təcrübəsi də Azərbaycan xalqının milli-mənəvi sərvətidir. Ağılı və enerjini bu sərvətə qarşı çevirməkdənsə, istiqlal və suverenliyin əbədiliyi uğrunda müasir mübarizədə də ona güvənmək, ondan daha çox faydalanmaq yolu bu Cümhuriyyətin milli-tarixi dərslərinə yeganə doğru ziyalılıq və vətəndaşlıq münasibətinin ifadəsi demək olardı."

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisin 26 may 1998-ci il tarixli təntənəli iclasındakı nitqindən müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 may


## Baş dönməsi orqanizmdə gedən bir sıra dəyişikliklərin göstəricisidir



Əgər ilk dəfə, qəfildən ortaya çıxan baş gicəllənmələri varsa və bu hal davamlı xarakter alıbsa, yubanmadan həkimə müraciət etmək lazımdır. Bu hal bir hərəkət yanılmasıdır. Xəstəyə elə gəlir ki, ya özü, ya da ətrafı hərəkət edir. Baş gicəllənmələri müşahidə olunduqda çox vaxt insan özünü zəlzələ baş verdiyi vaxtdakı kimi hiss edir və ya "yer ayağımın altından qaçır" ifadəsini işlədir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının nevroloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Nuridə Tağıyeva universitetin mətbuat xidmətinə müsahibəsində bildirib. Həkimin dediyinə görə, bu hal bədəndə baş verən bir sıra dəyişikliklərin göstəricisidir.

"Baş gicəllənmələri əsasən bədəndəki qanın həcmi, ürək ritmlərinin sürəti və qan təzyiqindəki dəyişikliklərlə əlaqədar yaranır. Həmçinin beynin alt və aşağı hissəsində yerləşən beyincik və daxili qulaqda yerləşən yarımdairəvi kanalların xəstəlikləri də baş dönməsinə və müvazinətin pozulmasına səbəb olur. Baş dönməsi miqrenin qabaqlayıcı əlaməti şəklində də rast gəlinə bilər",-deyə nevroloq deyib. Müayinə zamanı yanaşı gedən ürək bulanma, qusma, tərləmə, əl-ayaqda uyuşma, bulanıq görmə, gücsüzlük, qulaqda küy, eşitmənin azalması kimi əlamətlər xəstəliyin yaranma səbəbləri haqqında ilkin məlumat verir. Bununla yanaşı istifadə edilən bəzi dərman preparatları da baş dönməsinə səbəb ola bilər".

Nevroloqun sözlərinə görə, xəstəliyin kəskin və ya yavaş-yavaş başlaması, davam etmə müddəti, şiddətli baş dönməsinin mərkəzi və ya periferik səbəblərini fərqləndirmək üçün ipucu verir: "Həmin problemləri yaşayan xəstələrin həkimə vaxtında müraciət etməsi ürək-damar sistemi xəstəlikləri, beyin şişləri, kistlər, miqren, dağınıq skleroz kimi bir çox xəstəliyin vaxtında diaqnoz qoyulması və müalicəsi baxımından çox vacibdir".

## Üz dərisi yay aylarında daha həssas olur



Dərinin gözəlliyi onun sağlamlığından çox asılıdır. İlin bütün fəsillərində qulluğa ehtiyacı olan üz dərisi yay aylarında daha həssas olur.

AZƏRTAC xəbər verir ki, yayda günəş vannası qəbul ediləndə onun mənfi təsirləri nəzərə alınmalı, dəri yandırıcı şüalar və zərərli təsirlərdən qorunmalıdır. Bu səbəbdən yay fəslində edilən makiyajın bir sıra qaydalarına riayət etmək mütləqdir.

Kosmetoloqların dediyinə görə, isti aylarda dəri ilə əlaqədar şikayətlərin əksəriyyətini günəşdən yanma halları təşkil edir. Əgər dəridə yanıq hiss olunarsa, dərhal qabaqlayıcı tədbirlər görülməlidir. Bunun üçün, ilk növbədə, əl-üzü yumaq, soyuducudan buz götürüb üz dərisini soyutmaq tələb olunur. Bunların heç biri olmadıqda zərər görmüş nahiyəyə qatıq çəkilir və 20 dəqiqə saxlanıldıqdan sonra yuyulur.

Günəşdən yanma hallarında bitki yağları, xüsusilə gicitkən, itburnu və zeytun yağı da yaxşı təsir göstərir. Dəridə yaranan çillər, ləkələr də günəşin ultrabənövşəyi şüalarının təsirindən əmələ gəlir. Ona görə də yay aylarında dəriyə intensiv qaydada qulluq göstərilməlidir. Faydalı maskaların ev şəraitində hazırlanması mümkündür. İki qaşıq kəpək və bir qaşıq bal və ya bir qaşıq qaymaq qarışdırmaqla da sadə maska hazırlamaq olar. Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə mütəxəssislər isti havada makiyajdan daha az istifadə edilməsini məsləhət görürlər. Xüsusilə ağır tonlaşdırıcı kremlərin daha yüngülləri ilə əvəz olunması məqsədəuyğun hesab edilir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə I kurs tələbəsi Paşayeva Səadət Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin II kurs tələbəsi Məmmədova Gülşad Mətləb qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Messi açıqladı: "Biz Rusiyaya favorit olaraq getmirik"




"Barselona" klubunun və Argentina yığmasının hücumçusu Lionel Messi həmvətənlərini Rusiyada dünya çempionatı ərəfəsində öz ümidlərində realist olmağa çağırıb: "İnsanlar bilməlidirlər ki, biz Rusiyaya favorit olaraq getmirik. Amma bizim bir sıra çox yaxşı oyunçumuz var. Mən komandamıza inanıram. Bizdə istedadı və təcrübəsi olan oyunçular var. Amma hesab etməməliyik ki, biz yaxşıların yaxşısıyıq, çünki bu, doğru deyil. Daha yaxşı komandalar yetərincə çoxdur. Məsələn, Braziliya, İspaniya, Almaniya".

Bu günlərdə dostumla söhbət əsnasında o, mənə dedi: "Dinlə məni, İspaniya uğrunda mübarizə aparsaydın, dünya çempionu olardın". Amma mən bu barədə heç vaxt düşünməmişəm.

## "Keşlə" Azərbaycan kubokunun qalibi olub



Futbol üzrə Azərbaycan kubokunun final oyunu keçirilib. SİA-nın məlumatına görə, Qəbələ şəhər stadionunda baş tutan matçda "Qəbələ" və "Keşlə" üz-üzə gəlib. "Keşlə" 1:0 hesabı ilə qalib gələrək tarixində ilk dəfə bu titulu qazanıb.

Cümhuriyyətimizin 100 illik yubileyi günündə keçirilən qarşılaşmada Azərbaycanı növbəti avrokubok mövsümündə təmsil edəcək sonuncu komandanın da adına aydınlıq gəlib. Premyer Liqada mövsümü 4-cü pillədə başa vurmuş "Zirə" avrokuboklardan kənar qalıb. Kuboka sahib olan "Keşlə" Avropa Liqasına yüksəlib.

## "Real" UEFA reytinqində mövqeyini qoruyub



UEFA 2017/2018-ci il mövsümündə klubların reytinq siyasını açıqlayıb. UEFA.com səhifəsində yer alan məlumatda deyilir ki, "Real Madrid" (162.000 xalla) ardıcıl beşinci ildir birinci yerdəki mövqeyini qoruyub. UEFA Avropa Liqasında qalibiyyətə görə, "Atletiko Madrid" (140.000) iki pillə irəliləyərək ikinci olub. "Bavariya" (135.000) və "Barselona" (132.000) hərəsi bir pillə geriləyərək üçüncü və dördüncü yerlərdə qərarlaşıblar. İlk beşliyi isə "Yuventus" (126.000) klubu tamamlayıb.

## Gimnastlarımız Avropa çempionatında mübarizə aparacaqlar

AGF
AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI

Bədii gimnastika üzrə Azərbaycan yığması bu gün İspaniyanın Qvadalaxara şəhərinə yola düşüb. SİA-nın məlumatına görə, iyunun 1-də burada Avropa çempionatı başlayacaq. Çempionatda Siyana Vasilyeva, Aliyə Paşayeva, Ayşən Bayramova, Diana Doman və Zeynəb Hümbətovadan ibarət qrup komandası çıxış edəcək. Senyorkalar arasında şəxsi birincilikdə Zöhrə Ağamirova və Veronika Qudis öz güclərini sınayacaqlar. Yuniorkaların turnirində Arzu Cəlilova, Nərminə Səmədova və Yelizaveta Luzan çıxış edəcəklər.

Qeyd edək ki, AVRO-2018 gələn il Minskdə keçiriləcək Avropa oyunları üçün seçim turniridir. Çoxnövçülüyün yekunlarına görə, ilk səkkiz yeri tutan qrup komandaları və 12 ən yaxşı gimnast (bir ölkədən bir gimnast) Avropa oyunlarına vəsiqə alacaq.

## Ramil Şeydayevin yeni klubu müəyyənləşib



Azərbaycan milli komandasının futbolçusu Ramil Şeydayevin yeni klubu müəyyənləşib. SİA xəbər verir ki, 22 yaşlı hücumçu karyerasını Avstriya Bundesliqasında çıxış edən "Mattersburq"da davam etdirəcək. Bu barədə klub prezidenti Martin Puxer açıqlamasında məlumat verib. Avstriya mətbuatı gənc hücumçunun "Zalsburq"a qayıdan Smail Prevlyakın əvəzinə alındığını yazıb. "Mattersburq" cari mövsümdə Bundesliqanı 36 oyunda 46 xal yığaraq 6-cı pillədə başa vurub. Qeyd edək ki, Rusiyanın "Zenit" klubunun yetirməsi olan Ramil Şeydayev 2016-cı ilin yayında "Trabzonspor"la dördillik müqavilə bağlayıb. O, 2017-ci ilin yanvarında Slovakiyanın "Zilina", ötən ilin yayında isə "Qarabağ" klubuna icarəyə verilib. R.Şeydayev bu komandaların heyətində Slovakiya və Azərbaycan çempionu olub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**